# "Bakı Ürək Günləri" cərrahiyyəni yüksək səviyyəyə qaldırmağa xidmət edir

**Azərbaycanın dünyada artan nüfuzu sammit və forumların əsas təşkilatçısı statusunu möhkəmləndirib. Beynəlxalq təşkilatlar Azərbaycanın potensialını və qlobal mövqeyini nəzərə alaraq ölkəmizi mühüm tədbirlərin keçirilməsi üçün ev sahibi seçirlər. Son zamanlar Bakıda çox sayda iqtisadi, idman, humanitar, siyasi, tibb sahələrini əhatə edən konfranslar, görüşlər və yarışlar təşkil olunub. Bu nəinki Azərbaycanın təşkilatçılıq təcrübəsini ortaya qoyur, həm də ölkənin ümumbəşəri dəyərlərə sadiqliyini və əvəzolunmaz rolunu vurğulayır. Dünya Bakıda toplaşdıqca Azərbaycanın beynəlxalq atenada ulduzu daha çox parlayır.**



**Bu günlərdə paytaxtımızda baş tutacaq "Bakı Ürək Günləri" IX Beynəlxalq Konqresin təşkilatçısı qismində çıxış edən Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyətinin sədri, tibb elmləri doktoru, dosent, Mərkəzi Neftçilər Xəstəxanasının Ürək və Damar Cərrahiyyə şöbəsinin müdiri Ramil Əliyev ilə müsahibəni təqdim edirik.**

*–Ürək xəstəlikləri özünü necə büruzə verir və onların hansı üsulla qarşısını almaq mümkündür?*

–Ürək-damar xəstəlikləri əsasən oturaq, passiv həyat tərzi keçirən şəxslərdə, eyni zamanda yüksək təzyiq və maddələr mübadiləsinin pozulması hallarında baş verir. Misal üçün, şəkərli diabet xəstəliyi olan şəxslərdə ürəklə bağlı narahatlıqlar daha tez meydana gəlir. Son zamanlar bu xəstəliyin "gəncləşməsi" problemi ortaya çıxıb. Səbəb odur ki, buna təkan verən digər xəstəliklər də "gəncləşib". Metabolizm pozulmaları ürək-damar xəstəliklərini provokasiya edir və 70-80 yaşında meydana gələcək qüsur 40 yaş civarında aşkarlanır. Bu, əsasən ateroskleroz işemiya dediyimiz xəstəliklə ələqədardır. Daha dərinə getsək, bunun çox sayda multifaktorial səbəbləri var. Bunlardan birincisi, tütün məmulatlarından istifadə, qeyri-sağlam həyat tərzidir.




Daha bir problem uşaqlarda anadangəlmə ürək qüsurlarıdır. Xüsusilə qadınların tütün məmulatlarının istifadəsi ana olma funksiyasının pozulmasına, döldə, yeni doğulmuş körpədə müəyyən problemlərin yaranmasına səbəb olur. Erkən diaqnostika metodları hazırda çox inkişaf edib, bir çox xəstəlikləri təyin etmək asanlaşıb. Angioqrafiya üsulu artıq geniş tətbiq olunur, ixtisaslaşmış həkimlər bir çox hallarda insanların həyatını xilas edirlər. Hazırda mənşəyi və səbəbi bilinməyən xəstəliklər aşkarlanır. Əksər xəstəliklər müvafiq prosedurlardan sonra dərhal müəyyən olunur və həkimlər tərəfindən xəstə tam sağalana kimi qayğı ilə əhatə edilir.

*–Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyəti barədə oxuculara məlumat verərdiniz.*

–Azərbaycanda fəaliyyət göstərən ürək-damar cərrahları tərəfindən müxtəlif cəmiyyətlər təsis olunub. Onlardan biri də Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyətidir. 2004-cü ildə qurulub və rəsmi qeydiyyatdan keçib maarifləndirici tədbirlərin sayını nəzərə alsaq, aktiv fəaliyyətlə məşğuldur. Hər il sentyabrın 29-da "Dünya Ürək Günü" keçirirk. Müxtəlif alış-veriş mərkəzlərində sosial aksiyalar vasitəsilə insanları sağlam həyat tərzinə yönəltməyə çalışırıq. Həmçinin qocalar evində, uşaq evlərində diaqnostik tədbirlər, baxış, müayinələr, müalicələr təşkil edirik. Ciddi sağlamlıq problemləri olanları xəstəxanalara cəlb etməklə sağalmalarına şərait yaradırıq.

2009-cu ildən etibarən iki ildən bir "Bakı Ürək Günləri" Beynəlxalq Konqres təşkil edirik. Hər dəfə bu tədbirə dünyanın məşhur ürək-damar cərrahları və kardioloqları dəvət olunurlar. 16-18 may tarixlərində Gülüstan Sarayında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Bakı Ürək Günləri" IX Beynəlxalq Konqres keçiriləcək. Bu tədbirin özəlliyi ondan ibarətdir ki, dünyada son 5 il ərzində aort qapağının rekonstruksiyasında "Ozaki proseduru" deyilən üsulu tətbiq edən məşhur yaponiyalı mütəxəssis Shigeyuki Ozaki Azərbaycana gələcək. O, gənc həkimlərin qarşısında bu metodun tətbiqinə həsr olunan məruzə ilə çıxış edəcək. Dünyaca məşhur daha bir britaniyalı mütəxəssis David Taggartda bu konqresə qatılacaq.

Bu il yeniliklərdən biri ondan ibarətdir ki, "American Heart Association" tərəfindən təhkim olunmuş instruktorun tibb bacıları üçün ürək dayanmalarının idarə olunması ilə bağlı məruzəsi dinləniləcək. Müasir üsullardan istifadə etməklə həmin xəstələri təcili tibbi yardım briqadasından öncə, tibb mərkəzinə çatmamış necə idarə etmək lazım olduğu ətraflı izah ediləcək.

Qeyd edim ki, 2015-ci ildən etibarən Türk Dövlətlərinin ürək-damar cərrahlarının toplantılarını keçirirk. Ötən il Türkiyədə Türk Dövlətləri Ürək-Damar Cərrahlarının Birliyi yaradıldı və Cəmiyyətimizin fəxri sədri, ürək-damar cərrahı, professor, Mərkəzi Klinik Xəstəxananın baş həkimi Kamran Musayev baş katib seçildi. Bu çox şərəfli və eyni zamanda məsuliyyətli bir missiyadır. Türk Dövlətlərini bir amal uğruna birləşməyə, bu vəzifəni uğurla yerinə yetirməyə çalışırıq. Bu il keçiriləcək Konqresdə Türk dövlətlərinin ürək-damar cərrahiyyəsinin tarixinə və mövcud vəziyyətin müzakirəsinə həsr olunan sessiya təşkil olunacaq. Burada həmin ölkələri tanınmış cərrahlar təmsil edəcəklər, təqdimatlarla çıxışlar gözlənilir, peşə fəaliyyətində meydana gələn çatışmazlıqların aradan qaldırılması istiqamətində ortaq tədbirlər həyata keçiriləcək. Məqsəd bu ölkələrdə cərrahiyyəni ən üst səviyyəyə qaldırmaqdır. Konqresdə 16 ölkədən 60-a yaxın ürək-damar cərrahı iştirak edəcək, sessiyaların sayı da artırılıb. Mütəxəssislər öz sahələrinə uyğun təqdimatla çıxış edəcəklər.

*–Son zamanlar dünyada xəstəliklərin diaqnostikası, cərrahiyyədə süni intellektin tətbiqi genişlənir. Sizcə, AI real olaraq tibb sahəsinin inkişafına necə təsir edir?*

–Süni intellekt son zamanlar çox populyar mövzuya çevrilib, tibb sahəsində də tətbiq metodları var. Burada xüsusilə "süni" sözünü önə çəkmək istərdim. Bu, cərrahın təcrübəsinə, hissiyyatına təsir edəcək bir faktor deyil. Lakin həkimin düzgün istiqamət almasında köməklik edən amillərdəndir. Mən əminəm ki, gələcəkdə süni intellekt həkimə "bəlkə bu diaqnoz barədə düşünəsən?" deyəcək. Həkim də öz təcrübəsi əsasında son qərarı verəcək. Həkimin əvəzinə heç bir AI düzgün diaqnoz təyin edə bilməz.

*–Pasiyentin həkimə etimadı necə formalaşır?*

–Çox maraqlı sualdır. Həkimlə pasiyent arasında həqiqətən enerji mübadiləsi baş verməlidir. Biz canlı insanı müalicə edirik, həmin şəxsin ruh halı, bədəninin nə qədər xəstə olması çox vacib faktorlardır, bu səbəbdən ünsiyyəti motivasiya şəklində qurmalıyıq. Dünyanın ən yaxşı cərrahı olmaq mümkündür, lakin əgər xəstə sizdən "vibe" (dalğa) almayıbsa, əfsuslar olsun ki, bu iş alınmayacaq. Mən hər zaman deyirəm, biz xəstəliyi deyil, xəstəni müalicə edirik.

**Söhbət etdi:**
**Aygün İBRAHİMOVA,**
**"Respublika".**